# Dövlətlərarası münasibətlərdə yüksək səviyyədə keçirilən görüşlər mühüm rol oynayır

## *Ümummilli lider Heydər Əliyevin Rusiyaya tarixi dövlət səfərindən 20 il ötür*



***Ulu** öndər Heydər Əliyev ölkəyə rəhbərliyinin hər iki dövründə Azərbaycan üçün böyük işlər gördü. Bu dövrlərin tam mənzərəsinin canlandırılması, Heydər Əliyev fenomeninin müstəqil Azərbaycan dövlətinin təşəkkülü və inkişafı prosesindəki misilsiz rolunun tarixşünaslıq nöqteyi-nəzərindən dəqiq qiymətləndirilməsi isə geniş elmi araşdırmaların işidir və heç şübhəsiz ki, gələcək tədqiqatçılar tərəfindən zaman-zaman bu mövzuya müraciət ediləcəkdir.*

Heydər Əliyevin fəaliyyəti çoxşaxəli olmaqla Azərbaycan dövlətinin möhkəmləndirilməsi, onun qorunması, dünya dövlətlərinə tanıdılması, nüfuzunun artırılması və s. bu kimi qlobal məsələləri əhatə edirdi. Bu mənada o, yaxın qonşu dövlətlərlə ikitərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsi məsələsinə böyük əhəmiyyət verirdi. Təbii ki, birgə əməkdaşlığın qurulması, münasibətlərin inkişaf etdirilməsində dövlətlərə rəsmi səfərlərin, dövlət başçıları ilə görüşlərin böyük rolu vardı.

Odur ki, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002-ci il yanvarın 24-26-da Rusiyaya tarixi dövlət səfəri xüsusi əhəmiyyət kəsb edirdi. İndi həmin tarixi hadisədən 20 il ötür...

Səfərin ilk günü, yanvarın 25-də Rusiya Federasiyası Prezidentinin Novo-Oqaryovadakı şəxsi iqamətgahında Azərbaycan Prezidenti Heydər Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə görüşü olub. Görüş zamanı iqtisadi, siyasi, humanitar və digər sahələrdə hər iki ölkənin əməkdaşlığının böyük perspektivlərə malik olduğunu vurğulayan prezidentlər beynəlxalq və regional təşkilatlar çərçivəsində əlaqələrdən və dövlətlərin bir-birinə göstərdiyi qarşılıqlı dəstəkdən məmnunluqla söhbət açıblar. Həmin gün prezidentlər arasında təkbətək görüş olub. Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə həlli məsələsi ətrafında geniş fikir mübadiləsi aparılıb. Azərbaycan Prezidenti Heydər Əliyev münaqişənin aradan qaldırılmasında Rusiyanın həlledici rolunu diqqətə çatdırıb, Rusiya Prezidenti Vladimir Putin bu sahədə öz ölkəsinin səylərini daha da artırmağa hazır olduğunu vurğulayıb.

Nümayəndə heyətlərinin iştirakı ilə aparılan danışıqlardan sonra Rusiya-Azərbaycan sənədlərinin imzalanması mərasimi keçirilib. Prezidentlər iki ölkə arasında 2010-cu ilədək olan dövr üçün uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Qəbələ Radiolokasiya Stansiyasının ("Dəryal RLS) statusu, ondan istifadə olunmasının prinsipləri və şərtləri haqqında saziş, Rusiya Federasiyası Prezidentinin və Azərbaycan Respublikası Prezidentinin birgə bəyanatını imzalayıblar. Rusiya ilə Azərbaycan nümayəndə heyətinin üzvləri Rusiya Federasiyası hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri, istehsal kooperasiyası, vergi qanunvericiliyinin pozulması sahəsində mübarizədə əməkdaşlıq və informasiya mübadiləsi, sərhəd nümayəndələrinin fəaliyyəti haqqında sazişlər imzalayıb.

Sənədlərin imzalanması mərasimindən sonra kütləvi informasiya vasitələrinin nümayəndələri qarşısında bəyanatla çıxış edən Rusiya Prezidenti Vladimir Putin Azərbaycan dövlət başçısının səfərini ikitərəfli münasibətlərin inkişafında ciddi mərhələ kimi qiymətləndirdiyini deyib. Azərbaycan Prezidenti Heydər Əliyev bu görüşün Rusiya-Azərbaycan münasibətlərində mühüm yer tutacağını vurğulayıb.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şərəfinə təşkil edilən rəsmi qəbulda çıxış edən Azərbaycan Prezidenti Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin bünövrəsini əcdadlarımızın xeyli əvvəl qoyduqları möhkəm təməl üzərində qurulduğunu deyib.

Rusiya Federasiyası hökumətinin sədri Mixail Kasyanovla görüşdə isə Azərbaycan ilə Rusiya arasında qarşılıqlı faydalı əlaqələrin ildən-ilə daha da sıxlaşmasının hər iki tərəf üçün çox əhəmiyyətli olduğu bildirilib, Xəzərin karbohidrogen ehtiyatlarının birgə işlənilməsində və nəqlində ölkələrimizin əməkdaşlığı məsələləri ətrafında söhbət aparılıb. Həmçinin iqtisadi əlaqələrin daha geniş miqyasda inkişaf etdirilməsində Azərbaycan-Rusiya hökumətlərarası komissiyasının xüsusi rol oynadığı vurğulanıb.

Səfər çərçivəsində Azərbaycan Prezidenti Moskva şəhərinin meri Yuri Lujkov, M.Lomonosov adına MDU-nun rektoru V.Sadovniçi ilə də görüşüb. Görüşlərdə Azərbaycanla Moskva şəhəri arasında iqtisadi, mədəni, elmi-texniki əməkdaşlığa dair birgə komissiyanın işindən razılıq ifadə edilib, Rusiya-Azərbaycan münasibətlərinin, elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın inkişafında böyük xidmətlərinə görə Prezident Heydər Əliyevə Moskva Dövlət Universitetinin fəxri professoru diplomu və medalı təqdim olunub.

Yanvarın 26-da Azərbaycan Prezidenti Heydər Əliyev Rusiyanın xarici işlər naziri İqor İvanovla görüşüb. Görüşdə Xəzər dənizinin statusu məsələsində Rusiya ilə Azərbaycanın mövqelərinin yaxınlaşmasından məmnunluq ifadə edilib, xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupunun bu istiqamətdə işi davam etdirməsi qərara alınıb.

Azərbaycan Prezidenti Heydər Əliyev İTAR-TASS agentliyinin və Rusiyanın digər aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb, görüşdən sonra Azərbaycan Respublikasının Dövlət Teleqraf Agentliyi (AzərTac) və Rusiya Federasiyasının İnformasiya Teleqraf Agentliyi (İTAR-TASS) arasında beynəlxalq informasiya məkanında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Azərbaycan Prezidenti Azərbaycan Beynəlxalq Bankının Moskvada törəmə bankının açılışı mərasimində çıxış edib. Çıxışda deyib: "Mənim Rusiya Federasiyasına çox uğurlu keçmiş dövlət səfərim başa çatır. Mən bu səfərdən son dərəcə məmnunam".

Rusiyanın İnformasiya agentlikləri, qəzetləri, radio və televiziya kanalları dövlət başçısı Heydər Əliyevin bu səfərinə xüsusi diqqət göstərib, səfərin bütün təfərrüatını əks etdirən çoxsaylı məlumatlar yayıblar.

"Rossiyski biznes" qəzeti "Təxirə salınmış səfər uğurla keçdi" adlı məqaləsində yazır: "Bu səfər müəyyən edildiyi vaxtdan 3 ay sonra həyata keçirildi. Bu gecikmənin səbəbi nə idi?.. Heydər Əliyev tez-tez təkrar edir: "Rusiyanı və Azərbaycanı bir-birindən ayırmaq olmaz. Azərbaycanın heç bir rəhbəri 200 illik sıx əməkdaşlığı və birgə həyatı qoparıb ata bilməz". Bu işarələr Moskvaya da gəlib çatdı və Vladimir Putin ötən il Azərbaycanın dövlət başçısının Rusiyaya 2001-ci ilin noyabrında nəzərdə tutulmuş rəsmi səfəri ərəfəsində Qarabağ məsələsində Rusiyanın tarazlı mövqeyini bəyan etdi: "Rusiya özünün yanlış hərəkətləri ilə Ermənistan və Azərbaycan arasında artıq yaranmış tarazlığı pozmamalıdır".

Bəyanat eşidildi. Azərbaycan tərəfi Rusiya-Azərbaycan münasibətlərinə "strateji tərəfdaşlıq xarakteri" vermək üçün zəmin hazırlamaqdan ötrü dövlət başçısının 2001-ci ilin noyabr ayına nəzərdə tutulmuş səfərini 2002-ci il yanvarın axırına keçirməyi Moskvadan xahiş etdi"...

"Rossiyskaya qazeta"nın 2002-ci il 26 yanvar tarixli "Heydər Əliyev Rusiya ilə münasibətlərdə tərəqqidən son dərəcə məmnundur" adlı məqaləsində deyilir: "RF XİN-in nümayəndəsi, ATƏT-in Minsk qrupunun Rusiyadan olan həmsədri Vladimir Kazimirovun Qarabağ probleminin "mərhələli həllinin prioritetliyi barədə fikri Bakıda nikbinliklə qarşılanmışdır. Bu variantda Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən ərazilərdən erməni silahlı qüvvələrini çıxarmaq, sonra isə mübahisəli ərazinin statusu barəsində danışıqlara başlamaq nəzərdə tutulur. Həmin məsələdə iki ölkənin mövqeləri yaxınlaşmışdır".

"Strana.ru" İnternet qəzetində "Moskva ilə Bakı keçmiş inciklikləri unudaraq, vaxtı çatmış problemlərin həlli üçün sıx əməkdaşlıq etmək qərarına gəldilər" adlı məqalədə qeyd olunur: "... Heydər Əliyevin Moskvaya səfərinin yekunlarına dair mətbuat konfransında etiraf etdiyi kimi, Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra keçən 10 il ərzində ikitərəfli münasibətlərdə "heç də hər şey rəvan olmamışdır". İndi isə, görünür, vəziyyət dəyişir...

Moskva ilə Bakı arasında mövcud olan etimadsızlıq kölgəsi, demək olar ki, tamamilə çəkilib getmişdir...".

İki ölkə arasında münasibətlər bu gün də uğurla davam etdirilir. Bu isə həm də ulu öndərin həmin tarixi səfərinin məntiqi nəticəsidir...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**